ELMİ İŞ (beynəlxalq elmi jurnal) / SCIENTIFIC WORK (international scientific journal) 2020, №11/60 ISSN: 2663-4619
humanitar və sosial elmlər / humanities and social sciences e-ISSN: 2708-986X

DOI: 10.36719/2663-4619/60/8-11

**Tamilla Hüseyn qızı Ağayeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti

# MƏKTƏBƏQƏDƏR YAŞLI GÖRMƏ POZULMALARI OLAN UŞAQLARLA DİAQNOSTİKA VƏ KORREKSİYA-İNKİŞAFETDİRİCİ İŞİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *məktəbəqədər yaşlı, görmə pozulması, korreksiya, kompensasiya, diaqnostika, korreksiya və inkişafetdirici*

## Features of diagnostic and correctional and developmental work of preschoolers with visual impairments

**Summary**

It is known that early age is the main period of a child's physical, mental and personal develop ment. The most important issue in the organization of correctional and developmental work during this period is taking into account the peculiarities of mental development at an early age in children with visual pathology. Thus, this information ensures the use of adequate methods and techniques in the pedagogical process. In this regard, early diagnosis of the mental develop ment of a child with visual pathology at this age is of particular importance. Various methods are used to diagnose the mental development of visually impaired children of preschool and primary school age.

***Key words:*** *preschool age, visual impairment, correction, compensation, diagnostics, correctional and developmental*

Məktəbəqədər yaşlı görmə pozulmaları olan uşaqların psixi inkişaf çatışmazlıqlarının müayinə və diaqnostika metodikaları qısaca təhlil edilmiş və oyun fəaliyyətində korreksiya-inkişaf etdirici məşğələlərdə oyunlardan istifadə təklif edilmişdir, məqalədə görmə çatışmazlıqlarının aradan qaldırılmasında korreksiya - inkişafetdirici işin təşkili mərhələləri təsvir edilməklə yanaşı, görmə pozulmalarını kor reksiya, kompensasiya və şəxsiyyət kimi formalaşmasında müəllimlə valideynlərin qarşılıqlı və fəaliyyəti qeyd edilmişdir.

Məlumdur ki, erkən yaş dövrü-bu uşaqda fiziki, psixi və şəxsiyyətin inkişafıının təməl dövrüdür. Bu yaş özünü psixoloji-pedaqoji nöqteyi-nəzərdən səmərəli təsirin ən vacib mərhəsi kimi göstərir və görmə patalogiyalı məktəbəqədər yaşlı uşaqlarla təşkili olunan hər hansı bir pedaqoji fəaliyyət aşağıdakı prinsiplərin gözlənil məsini tələb edir:

- diaqnostika və korreksiyanın vahidliyi prinsipi;
- kompleks yanaşma prinsipi;
- ənənəvilik prinsipi;
- fərdi və differensial yanaşma prinsipi;
- korreksiya-pedaqoji təsirin ardıcıllığı və sistemliliyi prinsipi;
- əlyetərlilik prinsipi.

Korreksiya-inkişafetdirici işin təşkilində ən vacib məsələ görmə patalogiyası olan uşaqların erkən yaşda psixi inkişaf xüsusiyyətlərinin nəzərə alınmasıdır. Belə ki, bu haqda bilgilər pedaqoji prosesdə adekvat metod və üsullardan istifadəni təmin edir. Bununla bağlı həmin yaşda görmə patalogiyası olan uşağın psixi inkişafının erkən diaqnostikasının aparılması xüsusi məna kəsb edir. Diaqnostika zamanı əgər optik korreksiya ilə ən yaxşı görən gözdə görmə itiliyi 0,05 –dən 0,4 –dək olarsa, o zaman görmə qalığı olan və zəif görən uşaqlarda aşağıda qeyd edilən sərbəst hə rəkət etmə çətinlikləri müşahidə edilə bilər:

• ətrafdakılarla əlaqə yaratma çətinliyi;
• sxem və cədvəllərin oxunma çətinliyi;
• alaqaranlıq və ya qaranlıqda,əksinə parlaq işıqda hərəkətetmə şətinliyi;
• sinifdə, pilləkənlərdə hərəkətetmə çətinliyi;
• məktəbdə, böyük məkanlarda oriyentasiyanın pozulması;

Məktəbəqədər və kiçik məktəbli yaşlı görmə qüsurlu uşaqlarda psixi inkişafın diaq nostikası üçün aşağıda qeyd edilən metodikalardan istifadə olunur:

1.<u>Görmə qavramasının qiymətləndirilməsi metodikası.</u> Bu metodika 5-7 yaşlı uşaqlarda (L.S.Vıqotski, A.R.Luriya və d-ri) görmə qavramasının xüsusiyyətlərini öyrənmək üçün tədbiq olunur. Bu metodika obyektləri fərqləndirmək və hərəkət edən obyektləri izləmək səviyyəsini müəyyənləşdirməyə, ayrı-ayrı obyektləri ümumi fondan ayırmağa və ya hərəkət edən obyektləri izləmək imkansızlığını aşkarlamağa imkan

verir. Metodikadan erkən uşaqlıq və məktəbəqədər yaş dövründə uşaq ların koqnitiv inkişafını diaqnozlaşdırmaq üçün geniş istifadə olunur. Metodikadan istifadə üçün əsas şərtlərdən biri uşağın maraqlarına uyğun oyun materialının seçilməsi və kontrast rənglərdən istifadədir. Görmə qüsurlu (görmə qalığı işıqduyumu səviyyəsində olan) uşaqlara gəldikdə isə ışıq effekti olan oyuncaqlardan (fənər, flu orentsli müxtəlif rənglərdən) istifadə olunur. Bu mütəxəssisə uşağın oyuncağı izləmək imkanlarını anlamağa imkan verir və aşağıdakı göstəricilər qiymətləndirilir :

• Gözlə izləmənin davamlılığı;
• Görmə sahəsinin məhdudluğu;
• Böyüklərin kömək səviyyəsi;

Bu metodikanı ağır görmə qüsurlu uşaqlara tədbiq etmək olmaz.

2. "Güzgü "metodikası. Bu metodikadan 5-7 və yuxarı yaşlı uşaqlarda görmə və şəxsiyyət xüsusiyyətlərinin tədqiq edilməsi üçün istifadə edilir. Bu metodika ilə uşağın obyektləri görmə ilə fərqləndirməsi, güzgüdə özünü tanıma və digərlərindən fərqləndirməsi,yaxud fərqləndirməməsi, gözlə görülən ayrı-ayrı obyektləri ümumi fon dan ayırması və özünüdərk səviyyəsi haqqnda fikir yürütməyə imkan verir. Metodikadan istifadə etmək üçün əsas şərtlərdən biri stasionar güzgünün olması, ya da uşaqlar üçün sınmayan xüsusi (A 4 formatından kiçik olmayan) güzgülərdən istifa də edilməsidir.Metodikada aşağıda göstərilən göstəricilər qiymətləndirilir:

• Gözlə izləmənin davamlılığı
• Özünü güzgüdə tanıma
• Güzgüdə digərlərini tanıma
• Böyüklərin kömək səviyyəsi

3."Top" metodikası. Bu metodikadan erkən yaş dövründə motorika və görmənin inkişafının tədqiqində geniş istifadə edilir. Metodikadan məktəbəqədər yaşlı görmə qalığı işıqduyumu səviyyəsində olan uşaqların işıq effektləri olan toplardan istifadəsinə yol verilir. Metodika uşağın oyuncaqdan istifadə, topla manipulyasiya, oyuncağı gözlə izləmək bacarıqlarını qiymətləndirməyə imkan verir və aşağıda qeyd edilən göstəricilər qiymətləndirilir:

• Görmə ilə izləmənin davamlılığı;
• Ümumi motor vərdişləri (topu saxlamaq, əlindəki topla oturub-qalxmaq, sürünmək bacarığı);
• əl hərəkətlərinin koordinasiyası;
• ayağı ilə topa zərbə vurmaq imkanı
• diqqət, spesifik əqli funksiyalar (fəxr duymaq,qürurlanmaq);
• tapşırığın qəbulunda böyüklərin kömək səviyyəsi;

4.Bədən üzvlərini bilmək (özündə və oyuncaq gəlincikdə). Bu metodikadan erkən yaşda özünü qavramaq, fərqləndirmək prosesini, öz bədən üzvlərini bilmək və müraciət edilən nitqi başa düşmək səviyyəsini müəyyən etməyə yönəldilir. Metodikadan ağır görmə qüsurlu uşaqlarda müqayisə və görmə qavramasının səviyyəsini tədqiq etmək üçün istifadə edilmir.

5.Sadə hərəkətlərin yerinə yetirilməsi. Metodika məktəbəqədər yaşlı uşaqların inkişaf xüsusiyyətlərini, müraciət edilən nitqi dərketmə bacarıqlarını öyrənmək üçün və onun tanış olduğu əşyalala sadə fəaliyyətkəri yerinə yetirmə vəziyyəti haqqında fikir yürütməyə imkan verir və aşağıda qeyd edilən göstəricilər qiymətləndirilir:

• Nitqin başa düşülməsi və ondan istifadə vəziyyəti ;.
• Təlimə uyarlıq.
• Öz fəaliyyətinə münasibət.
• Böyüklərin kömək səviyyəsi.
• Uşaqda funksional oyun fəaliyyətinin olması.

6."Şəkil seçmək". Metodika E.A.Stebleva tərəfindən işlənmiş və ondan uşağın görmə qavraması və nitqinin inkişaf xüsusiyyətlərini öyrənmək üçün tədbiq edilir. Bu metodikanın köməyi ilə alınmış nəticələr uşaqda cüt şəkilləri görmə ilə müqayisə bacarığının formalaşma və nitqi başa düşmə səviyyəsi haqqında aşağıdakı göstərici lərə görə fikir yürütməyə imkan verir:

• Uşaq təsviri və oyuncağı müqayisə edir və ya edə bilmir;
• Tapşırığı qəbul etmə;
• Təlimə uyarlıq;
• Öz fəaliyyətinə münasibət;
• Nitqi anlama və ondan istifadə.

Metodikadan ağır görmə qüsurlu uşaqlarda (total kor və ağır zəif görmə səviyəsin də olan uşaqlar) istifadə edilmir.

10. Görmə və məkani qavramasının, motor funksiyalarının inkişafının qiymətləndirilməsi. Metodika E.A.Stebleva tərəfindən sistemləşdirilmiş, erkən və məktəbəqə dər yaşlı uşaqların koqnitiv və motor funksiyaların inkişafını müəyyənləşdirməyə yönəlmişdir. Metodika ilə görmə-motor koordinasiyası, həcm, ölçü təsəvvürləri və motor funksiyaların inkişafı haqqında məlumatlar əldə etmək olar.

Metodikada aşağıdakı göstəricilər qiymətləndirilir:

• Müraciət olunan nitqin başa düşülməsi və nitqdən istifadə bacarığı;
• Motor funksiyaların inkişafı;
• Görmə-motor koordinasiyasının inkişafı;
• Təlimə uyarlı;
• Öz fəaliyyətinə münasibət;
• Böyüklərin kömək səviyyəsi;
• İş strategiyası (görmə ilə müqayisənin sınaqları və səhvləri

Qeyd edilən bu diaqnostik metodlar tibbi-pedaqoji-psixoloji komissiyada pedaqoq-psixoloq tərəfindən aparılır və məktəbəqədər yaşlı görmə pozulması olan uşağın şəxsiyyət, psixi fəaliyyət sahəsinin diaqnostikası üçün istifadə olunur.

Diaqnostikanın nəticələri mövcud çatışmazlıqların düzgün korreksiya işinin təşkili nə böyük imkan yaradır. İnkişaf qüsurları olan uşaqlara yardım göstərilməsi üçün optimal şəraitin yaradılması da çox vacibdir. Görmə patalogiyası olan uşaqlara erkən korreksiya-inkişafetdirici işin əsas məqsədi bu kateqoriyadan olan uşaqların görmə pozulmalarını korreksiya və kompensasiya etməklə psixi inkişaf çatışmazlıqlarını aradan qaldırmaq, şəxsiyyət kimi formalaşdırmaqdır. Bu məqsədə çatmaq üçün erkən korreksiya-inkişafetdirici işin aşağıda qeyd edilən mərhələləri müəy yən edilmişdir:

1. İnkişafın səviyyəsini və qüsurun strukturunun müəyyənləşdirilməsi;
2. Görmə patalogiyasının ağırlığı və inkişaf səviyyəsinə görə yarım qrupların yaradılması;
3. Korreksiya-inkişaf etdirici işin məqsədinin və planının müəyyənləşdirilməsi;
4. Korreksiya-inkişafetdirici işin səmərəliliyinin monitorinqinin aparılması;

Bu zaman yuxarıda qeyd edilən bütün mərhələlər üçün əsas müəyyənedici şərtlərdən biri pedaqoji prosesdə bütün iştirakçıların qarşılıqlı fəaliyyətdə olmalarıdır. Kor reksiya-inkişafetdirici işin birinci mərhələsi informasiya xarakteri daşıyır və bu mərhələdə müəllim/tərbiyəçi tərəfindən uşaq haqqında anmatestik məlumatlar top lanır, xəstəlik tarixçəsi öyrənilir, valideynlərlə söhbət aparılır, görmə pozulmasının quruluşu və görmə patalogiyasını müşaiyət edən psixi çatışmazlıqlar ciddi araşdırılır, ən nəhayət, uşaqların ilkin psixoloji-pedaqoji müayinəsi aparılır. Alınmış nəti cələrin təhlili göstərir ki, görmə pozulması olan uşaqların əksəriyyətində bətn daxili və anadan olduqdan sonrakı dövrlərdə özünü göstərən görmə pozulmasının strukturu və yanaşı çatışmazlıqları onun həm fiziki, həm də psixi inkişafına mənfi təsir göstərir və çox zaman da ağırlaşmalara gətirib çıxara bilir.

Korreksiya-inkişafetdirici işin aşağıda qeyd edilən istiqamətləri vardır:

• emosiana sahənin inkişafı;
• sosial-məişət bələdləşməsi;
• kiçik motorika və duyğuların inkişafı;
• məkanda bələdləşmənin inkişafı;
• görmə qavramasının inkişafı;
• valideyn və müəllimlərlə (tərbiyəçilərlə) qarşılıqlıfəaliyyət;

Məktəbəqədər yaşlı uşağın inkişafına yönəldilmiş əşya-inkişafetdirici mühitin yara dılması, xüsusi korreksiya-inkişafetdirici məşğələlərin təşkili müxtəlif rejim vaxtlarında situasiyalardan istifadə və qrupdakı hər bir uşağın valideynləri ilə müəllimlərin sıx əməkdaşlığını özündə birləşdirir. Kiçik yaşlı görmə patalogiyası olan uşaqların fərqli cəhətlərindən biri onların oyun fəaliyyətidir. Görmənin bu və ya digər dərəcədə itirilməsi oyun fəaliyətinin təşkili və gedişinə böyük təsir göstərmiş olur. Xüsusilə də kor məktəbəqədər yaşlı uşaq oyun fəaliyyətinin təşkilində, iştirak və oyun qaydalarına riayət etməkdə böyük çətinliklərlə üzləşirlər. Oyun fəaliyyəti zamanı kompleks didaktik təsir vasitələrdən geniş istifadə etmək olar. Görmə pozulması olan, xüsusilə də, kor uşaqlarla oyun prosesində böyüklər oyunun fəal iştirakçısı və təşşəbbüskarı olaraq onu idarə edir, bununla da, onlarda sosial vərdiş lərin formalaşmasına, idrak və nitq, görmə qavraması, kiçik və böyük motorikanın inkişafı, məkanda bələdləşmə, müxtəlif növ uşaq fəaliyyətində onların qarşılaşdıq ları əşya və hadisələrin əlamət və xüsusiyyətləri haqqında tam təsəvvürlərin yaran masına kömək edən zədələnməmiş analizatorların inkişafına təkan vermiş olurlar. Bundan əlavə, böyüklərin oyun posesində ifadə etdikləri müsbət emosiyalar, rəğ bətləndirmə, uşaqlara dəstək onlarda əldə etdiyi uğurlara sevinmək, qürur, müsbət əhval-ruhiyyə, oyun fəaliyyətinə maraq və motivasiyanın yaranmasına səbəb olur. Fərdi və ya qrup məşğələlərində, uşağın hərgünkü fəaliyyətlərində müxtəlif atribut və qurğulardan (sürüşkən,

müxtəlif rəngli və ya birrəngli payandazlardan, susuz hovuz, qum və su köşklərindən), didaktik materiallardan, loqoteka, relaksiya üçün qurulmuş otaqlardan istifadə məktəbəqədər yaşlı kor uşağın əşyalar aləminə daxil olmasına, onları zədələnməmiş analizatorlar vasitəsilə duymasına kömək edir. Sadalanan bütün bunlar erkən yaşlarda uşağın inkişafını stimullaşdırır, bu yaş üçün ən vacib, xarakterik tələbatlarından biri olan: uşağın hərəkətə, əşya-əməli fəaliyyətə tələbatını realizə etməyə və meydana çıxan psixi çatışmazlıqları aradan qaldır mağa imkan verir. Korreksiya-pedaqoji işin intensivliyi və davamlılığı kor uşağın təlim-tərbiyə, korreksiya və kompensasiya ehtiyaclarının ödənilməsindən, təhsil prosesinin maddi-texniki təminatından, valideynlərin təhsil və tərbiyə prosesinə fəal qoşulmasından asılıdır. O, uşağın ümumi inkişafında müstəsna rol oynayır və uşağın öz fərdi imkanlarına, həmçinin vəziyyətinə görə dəyişə bilir. Məktəbəqədər yaşlı görmə patalogiyalı uşaqlarla təşkil olunan korreksiya-tərbiyə işi aşağıdakı məsələləri əhatə edir:

- Görmə qüsurlu uşaqlarin sensor sahəsinin inkişaf etdirilməsi (görmə qavrayışının inkişaf etdirilməsi)
- Məkanda orientasiya və sürətlə hərəkətetmə qabiliyyətinin inkişafı;
- Məişətdə orientasiya;
- Mimikanın və pantomimikanın inkişaf etdirilməsi;
- Ritmika;
- Nitqin inkişaf etdirilməsi;
- Müalicəvi bədən tərbiyəsi.

Korreksiya-inkişafetdirici işin səmərəliliyinin dəyərləndiriməsi üçün N.M.Aksarinanın, K.L.Peçyoranın, Q.V.Pantyuxinanın işləyib hazırladıqları metodika ilə kiçik yaşlı görmə pozulması olan uşaqların sinir-psixi inkişafının təkrar diaqnosti kasını aparmaq olar. Müayinə nəticələrinin təhlili uşaqlarda müsbət inkişaf dinamikasını göstərdi. Bundan əlavə korreksiya-inkişafetdirici proqramın əsas istiqamətləri üzrə də aparılan diaqnostikada bütün göstəricilər üzrə müsbət irəliləyişlərin olduğu qeyd edilir. Korreksiya-pedaqoji yardım mütəmadi və ya vaxtaşırı ola bilər. Məktəbəqədər müəssisələr şəraitinə kor və zəif görən uşaqların uyğunlaşması və təhsil proqramının mənimsənilməsi zamanı ortaya çıxan problemlərin həlli məhz korreksiya-pedaqoji yardımın göstərilməsi ilə aradan qaldırılır. Məsələn, uşaqlar optiki korreksiyaedici vasitələrdən istifadə etməklə (eynək, binokl və s.) proqramı, sxem və cədvəlləri mənimsəyə, məkanda sərbəst, təhlükəsiz hərəkət edə bilirlər. Bundan əlavə, görmə patalogiyalı uşaqlarla erkən yaşda korreksiya - inki şafetdirici işin səmərəliliyi onların ailələri ilə yaradılan qarşılıqlıfəaliyyətdən də çox asılıdır. Müəllimlə (tərbiyəçi) valideynin birgə işi məktəbəqədər yaşlı görmə pozulması olan uşaqların təlim-tərbiyə problemlərinin həllinə, yanaşı psixi çatışmazlıqların ardıcıl və məqsədəyönlü korreksiya, kompensasiya və profilaktikasını təşkil etməyə imkan verir. Valideynlərlə qarşılıqlı və fəaliyyəti zamanı hər iki tərəfin biri-biri ilə əməkdaşlığının mümkünlüyünün dərk edilməsi, uşağa aid istə nilən informasiyanı əldə etmək imkanlar sisteminin açıq olması korreksiya-inkişaf etdirici işin uğurlu olmasına şərait yaradır. Müəllimin valideynlərlə səmərəli qarşı lıqlı fəaliyyət formalarından biri valideyn iclaslarıdır. Bu iclaslar çox zaman diskus siya şəklində keçirilir və valideyni narahat edən, onu düşündürən suallara, təlim-tərbiyə, korreksiya işinin səmərəliliyini artırmağa təkan verən işləri planlaşdırmağa və həyata keçirtməyə kömək edir. Bundan əlavə valideynə rahat olan vaxtda məktəbəqədər uşaq müəsssəsinə sərbəst girişinin təmin edilməsi, müəllimin uşağa, uşaqların müəllimə münasibətini, onların bir-biri ilə ünsiyyətini öyrənməyə, uşağın kollektivdə fəaliyyəti ilə tanış olmağa şərait yaradır.

Beləliklə də, aparılan korreksiya-inkişafetdirici iş erkən yaşlı görmə patalogiyalı uşağı maksimal inkişaf səviyyəsinə yaxınlaşdırmağa imkan verir.

## Ədəbiyyat

1. Ağayeva T. Görmə funksiyasının pozulmaları və onun psixokorreksiyası Bakı, 2017.
2. Коррекционно-развивающая работа с детьми раннего и младшего дошколь ного возраста / Под ред. Н.В.Серебряковой. – СПб.: КАРО, 2005.
3. Печора К.Л. Развитие и воспитание детей раннего и дошкольного возраста. Актуальные проблемы и их решение в условиях ДОУ и семьи. – М. 2006.

**Rəyçi: dos. M.Məlikov**

Göndərilib: 24.11.2020 Qəbul edilib: 26.11.2020